| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 21.10.2014 |
| QEYDİYYAT NÖMRƏSİ | 339 |
| ADI | “Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-2014, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 1309) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 21.10.2014 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 090.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 31.10.2014 |

**“Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 11, maddə 1189; 2008, 6, maddə 586, 10, maddə 937; 2009, 10, maddə 846; 2013, 11, maddə 1461) ilə təsdiq edilmiş “Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği” cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü bənddə “8”, “5”, “4”, “2,5” rəqəmləri müvafiq olaraq “12”, “7,5”, “6”, “3,5” rəqəmləri ilə əvəz edilsin;

1.2. 4-cü bənddə “12”, “10”, “6”, “4” rəqəmləri müvafiq olaraq “18”, “15”, “9”, “6” rəqəmləri ilə əvəz edilsin;

1.3. “Sumqayıt və Gəncə şəhərləri, Abşeron rayonu üzrə” bölməsinə aşağıdakı məzmunda altıncı sətir əlavə edilsin:

“digər zonalar (kənd, qəsəbə və s.) 1,2”;

1.4. “Naxçıvan MR, Şirvan, Mingəçevir, Lənkəran, Yevlax və Şəki şəhərləri üzrə” bölməsinə aşağıdakı məzmunda beşinci sətir əlavə edilsin:

“digər zonalar (kənd, qəsəbə və s.) 1,0”;

1.5. “Naftalan, Şamaxı, Qazax, Şəmkir, Salyan, Quba, Xaçmaz, Zaqatala, Göyçay şəhərləri üzrə” bölməsinə aşağıdakı məzmunda dördüncü sətir əlavə edilsin:

“digər zonalar (kənd, qəsəbə və s.) 1,0”;

1.6. “Digər rayonlar üzrə” bölməsinə aşağıdakı məzmunda dördüncü sətir əlavə edilsin:

“digər zonalar (kənd, qəsəbə və s.) 0,9”;

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur RASİ-ZADƏ**

Bakı şəhəri, 21 oktyabr 2014-cü il
339